**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÖLKƏ MÜƏSSİSƏLƏRİNDƏ İNTELLEKTUAL KAPİTALIN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ

İxtisas: 5308.01 - "Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53 – iqtisad elmləri

İddiaçı: **Rəna Şikar qızı Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**A V T O R E F E R A T I**

**BAKI - 2025**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Heydər Sərdar oğlu Həsənov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Şəfa Tofiq qızı Quliyeva**

iqtisad elmləri doktoru, professor
**Elnurə Bünyat qızı Məmmədova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Allahyar Niyaz oğlu Muradov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

**Dissertasiya şurasının elmi katibi:** iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Suqra İnqilab qızı Hümbətova**

**Elmi seminarın sədri:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bütün dövrlərdə bəşəriyyətin inkişafının hərəkətverici qüvvəsi rolunu “bilik” oynamışdır. Bilik sayəsində insanlar məqsədyönlü şəkildə fəaliyyət göstərərək məhdud resursları yeni nemətlərə, məhsullara və xidmətlərə çevirə bilirlər. Müasir şəraitdə iqtisadi və texnoloji inkişafın paradiqması dəyişir, əgər köhnə paradiqma iqtisadi subyektlərdə daha çox istehsal resurslarından istifadə etməklə standart nemətlərin kütləvi istehsalını nəzərdə tuturdusa, yeni paradiqma əksinə, istehsal proseslərinin və nemətlərin keyfiyyətinin artırılmasına və diversifikasiyaya arxalanır. Artıq yeni texnologiyaları istifadə etməklə az xammal və material istifadə edən və yüksək məhsuldarlığı və çevikliyi ilə seçilən biznes subyektləri geniş şəkildə yayılmağa başlamışdır. Qloballaşma nəticəsində dünyanın inkişaf etmiş ölkələrində gedən bu cür dəyişikliklər Azərbaycana da sirayət etmişdir. Çağdaş dövrdə biznesin xarici mühitində baş verən gözlənilməyən dəyişikliklərə adekvat cavab vermək problemləri üz-üzə qoyur. İnnovasiya proseslərinin sürətləndirilməsi və hər sahədə kreativ yanaşmanın həvəsləndirilməsi biznes sturukturlarının qarşılaşdığı problemlərin çözülməsinə şərait yaradır.

Ayrı-ayrı məhsul və xidmətlərin istehsalının təşkili, menecmenti, maliyyələşməsi, təchizatı, satışı, marketinqi və digər biznes proseslərin arxasında texnologiya dayanır. Texnologiya isə müxtəlif işlərin həyata keçirilməsi biliyini təcəssüm etdirir. İnformasiya cəmiyyətində texnologiya inkişaf meyarı kimi insanların gündəlik həyatının ayrılmaz hissəsi olmuşdur. Postindustrial sivilizasiyada peşəkar aktivlik sahibkarlıq subyektlərindən evlərə keçir. Belə şəraitdə əqli fəaliyyətin bir proses kimi nəyə gətirib çıxaracağını əvvəlcədən proqnozlaşdırmaq qeyri-mümkündür. Amma biliklər həmişə intellektual fəaliyyətin nəticəsi kimi çıxış edir. Biliklərin fərdləşdirilməsi intellektual mülkiyyət sisteminin əhəmiyyətini artırır. İntellektual mülkiyyət sistemi elmi, bədii, ədəbi əsərlərlə yanaşı insan fəaliyyətinin bütün sahələrini əhatə edən ixtira və kəşfləri, sənaye mülkiyyətini, sənaye nümunələrini, ticarət nişanlarını və adlarını əhatə edir.

Azərbaycan iqtisadiyyatının dayanaqlı və inklyuziv inkişafı bizneslə məşğul olan təşkilatların rəqabətqabiliyyətinin artırılmasını nəzərdə tutur. Bunu isə yeni məhsul və xidmət istehsalı və satışı texnologiyalarının

tətbiqini və mənimsənilməsini həyata keçirmədən etmək qeyri-mümkündür. İntellektual və sənaye biliyini, ticarət nişanını, və yaxud hər hansı bir ixtiranı patentləşdirməklə istənilən təşkilat və ya fiziki şəxs müvafiq məkanda müəyyən zaman kəsiyində müstəsna rəqabət üstünlüyü əldə edir. Bu üstünlükdən istifadə edən biznes subyekti isə müxtəlif məhsullar üzrə bazar payını və bazar kapitallaşmasını yüksəldir.

Yeni məhsul və texnologiyalardan istifadə biznes subyektlərin ənənəvi rəqabət mübarizəsinin dinamikasını dəyişdirir. Rəqabət mübarizəsində uğurlu şirkətdən geri qalmaq istəməyən işgüzar təşkilatlar əqli fəaliyyətə, elmi axtarış və təcrübə konstruktor işlərinin aparılmasına daha çox diqqət yetirməyə məcbur olurlar. Deməli intellektual kapitalın biznesin inkişafında yeri və rolu danılmazdır. İntellektual kapitalın ayrı-ayrı atributlarının və aspektlərinin araşdırılması iqtisad və menecment elminin və təcrübəsinin aktual məsələsi rolunu oynayır.

Əqli fəaliyyətin aparılması bir sıra məsələlərə, xüsusən də kreativ mühitin yaradılması, nüfuzlu tədqiqatçılar komandasının yaradılmasına, yeni texnologiyalar baxışının formalaşmasına, yeni baxışın təbliğatına, yeni texnologiyaların tətbiqi və istifadəsi strategiyasının hazırlanmasına diqqətin artırılması vacibdir.

Amma yerli biznes təşkilatlarında əqli mülkiyyətin yaradılmasına və qorunmasına lazımı əhəmiyyət verilmir. Digər sözlə desək, respublikada fəaliyyət göstərən əksər təşkilatlar bazar şəraitində uzunmüddətli strateji görməni, niyyəti və məqsədləri müəyyən etmək, onlara nail olmağa xidmət göstərən əqli fəaliyyət strategiyasını hazırlamaq və reallaşdırmaq sahəsində lazımi biliklərə, təcrübəyə malik deyildirlər.

Biznesin xarici mühiti qeyri-müəyyənliklə seçilir və sabitlikdən dinamikliyə doğru dəyişir. Daima yeniliklərin yaranması və texnoloji biliklərin durmadan inkişafı bu mühitdə qeyri-müəyyənlik yaradan başlıca amillərdəndir. Ona görə də əqli fəaliyyətin yeni xüsusiyyətlərinin sistemli, prosesli və müqayisəli yanaşma tendensiyalarının araşdırlıması mühüm elmi və təcrübəvi məsələ kimi ortaya çıxır.

Beləliklə, iqtisadi subyektlərdə intellektual kapitalın yaradılması, idarə edilməsinin araşdırılması və keyfiyyətinin yüksəldilməsi məsələsi elmi-praktiki əhəmiyyət daşıyır və getdikcə aktual xarakter alır.

Məsələnin bu formada qoyulması belə bir mövzuda dissertasiya işinin yazılmasını labüd etmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Bu mövzuda bir sıra yerli və xarici iqtisadçı alimlər tədqiqatlar aparmışlar. Ölkə alimlərindən Ə.C.Muradov, Q.N.Manafov, T.Ə.Quliyev, Ə.P.Babayev, A.Ş.Şəkərəliyev, U.K.Ələkbərov, H.S.Həsənov, Ü.Q.Əliyev, M.A.Əhmədov, Ş.T.Quliyeva, İ.A.Kərimli, A.D.Hüseynova, A.N.Muradov, T.N.Əliyev, F.Q.Mikayılov və digər alimlər tədqiqatlarında insan resursları, insan kapitalı, innovasiyalı iqtisadiyyat, menecment və bu sahələrlə əlaqəli digər məsələləri tədqiq etmişlər. Lakin bilavasitə intellektual kapitalın idarə edilməsi və onun tətbiqinin sürətlənidirilməsi aspektlərini araşdırmamışlar. Xarici ölkə alimləri T.Styuart, L.Edvinson, E.Brukinq, K.Sveybi, H.Beker, N.İkujiro, B.Lev, N.Bontis, S.Uinter, A.Slivotski, B.B.Leontyev, Riçard R.Nelson, V.L.İnozemtsev, T.Byuzen və digərləri intellektual kapitalın təşəkkülü və istehsala tətbiqi sahəsində özüməxsus elmi araşdırmalar aparmışlar. İntellektual kapitalın maddiləşməsinin günün vacib çağırışları sırasında xüsusi əhəmiyyətə malik olmasını nəzərə alsaq görərik ki, əqli əmək sisteminin bu və ya digər komponentlərinin və parametrlərinin tədqiqi davam etdirilməlidir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini ölkəmizdə fəaliyyət göstərən iqtisadi subyektlərdə intellektual kapitalın tətbiq səviyyəsinin öyrənilməsidir. Tədqiqatın predmeti yeni intellektual texnologiyaların iqtisadi subyektlərdə tətbiqi, intellektual kapitalın formalaşması və istifadəsi zamanı yaranan istehsal, sosial və idarəetmə münasibətlərinin müxtəlif komponentləridir.

**Dissertasiya işinin məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi ölkənin və ayrı-ayrı sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə xidmət edən intellektual kapitalın nəzəri məsələlərini araşdırmaqdan və intellektual kapitalın istehsala tətbiqinin sürətləndirilməsi yanaşmalarını və üsullarını müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqat işində bununla əlaqədar olaraq, qeyd olunan konkret vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- intellektual kapitalın təşəkkülü və iqtisadiyyata tətbiqi xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- ölkədə intellektual kapitalın müasir inkişafının və qorunmasının qiymətləndirilməsi;
- iqtisadi subyektlərdə intellektual kapitalın müasir vəziyyətinin təhlili və dəyişiklik meyllərinin üzə çıxarılması;

- intellektual kapitalın əsas obyektlərinin qiymətləndirilməsi xüsusiyyətlərinin öyrənilməsi;
- intellektual kapitalın idarə edilməsi mexanizminin təhlil edilməsi;
- intellektual kapitalın iqtisadiyyata tətbiqinin səmərəliliyinin artırılması yollarının araşdırılması.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- İntellektual kapitalın yaranmasının tarixi aspektləri, elmi əsasları, iqtisadiyyata tətbiqinin metodologiyası kompleks və sistemli şəkildə araşdırılmış və göstəricilər sistemi formalaşdırlmışdır;
- İntellektual kapitalın əsas tərkib hissəsi olan intellektual biliklərin generasiyası, strukturu və inkişafı dərindən tədqiq olunmuş və müasir dövrdə iqtisadi subyektlərdə biliklərdən və yeni texnologiyalardan geniş istifadənin müsbət təsirləri aşkarlanmışdır;
- İntellektual kapital obyektlərinin qiymətləndirilməsi zamanı qarşıya çıxan problemlər təhlil olunmuş, mütərəqqi dünya təcrübəsi öyrənilmiş və Azərbaycanda intellektual kapitalın formalaşmasının mövcud vəziyyəti təhlil olunmuşdur;
- Azərbaycanın intellektual potensialının qiymətləndirilməsi üçün bir-birini tamamlayan üç sahə: təhsil, elm və texnologiya və yeni biznes vasitəsilə qeyri-maddi aktivlərin inkişaf və istifadə səviyyəsini kəmiyyətcə ifadə etməyə imkan verən xüsusi uyğunlaşdırılmış İntellektual Kapitalın İnteqral İndeksi (İKİİ) hesablanmışdır;
- Yerli müəssisələrdə intellektual kapitalın müasir vəziyyəti həmin müəssisələrdə aparılan sorğular vasitəsilə öyrənilmiş, əldə olunan nəticələr qiymətləndirilmiş və ali təhsil müəssisəsində (UNEC timsalında) intellektual kapitalın dəyəri hesablanmışdır;
- İqtisadi fəaliyyət sahələrində informasiya-kommunikasiya texnologiyalarının məhsul buraxılışına təsir səviyyəsi qiymətləndirilmişdir;
- Müasir tələblər baxımından innovasiyalı inkişaf kontekstində intellektual kapitalın istehsala tətbiqinin yaxşılaşdırılması, tətbiqi üsullarının və vasitələrinin səmərəliliyinin artırılması yollarını əks etdirən əsaslandırılmış təkliflər və tövsiyələr işlənilib hazırlanmışdır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycan gerçəkliyində sistemli şəkildə iqtisadiyyatın transformasiyasında intellektual mülkiyyət vektoru, onun obyeklərinin yaranma təbiəti,

inkişafı formaları və istehsala tətbiqinin keyfiyyətinin yüksəldilməsi yolları və üsullarının sərgilənməsinə cəhd edilmişdir. Ümumiyyətlə, dissertasiya işinin əsas elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Azərbaycanın intellektual potensialının qiymətləndirilməsi üçün xüsusi uyğunlaşdırılmış İntellektual Kapitalın İnteqral İndeksi (İKİİ) hesablanmışdır;
- sosioloji sorğular əsasında yerli müəssisələrdə intellektual kapitalın formalaşmasının dəyişiklik meyilləri üzə çıxarılmışdır;
- ali təhsil müəssisələrində intellektual kapitalın ölçülməsi aparılmışdır;
- İKT imkanlarının iqtisadi fəaliyyət sahələrində məhsul buraxılışına təsir səviyyəsi qiymətləndirilmişdir;
- intellektual kapitalın işlənməsi texnologiyasının təkmilləşdirilməsi yolları təklif edilmişdir.

**Tədqiqat işinin nəzəri və metodoloji hissəsində** iqtisad elminin klassiklərinin, iqtisad elminə töhfə vermiş xarici və ölkə alimlərinin innovasiyaların işlənməsi və intellektual kapital haqqında əsərləri, nəzəri və praktiki fikirləri, Azərbaycanda intellektual kapital mühitini formalaşdıran müvafiq təşkilati-hüquqi aktlar yer alır. Tədqiqatın yerinə yetirilməsində nəzəri baza olaraq, dördüncü və beşinci texnoloji inqilaba cavab verən elmi araşdırmalar təşkil edir.

Dissertasiya işində müqayisəli və sistemli təhlil, analitik ümumiləşdirmə və sistemləşdirmə, dinamika, tarixi yanaşma, fərdi və empirik müşahidə vasitələrindən geniş istifadə edilmişdir.

**Tədqiqatın informasiya-empirik və normativ-hüquqi bazasını** Azərbaycanın hakimiyyət budaqlarının müvafiq normativ sənədləri, Dövlət Statistika Komitəsinin rəsmi statistik məcmuələri, beynəlxalq qurumların statistik nəşrləri, hesabatları, rəsmi internet saytları və ayrı-ayrı sahibkarlıq strukturlarının praktiki fəaliyyətinin nəticələrini əks etdirən illik hesabatları, beynəlxalq konfransların materialları və xüsusi dövri nəşrləri təşkil edir. Bundan başqa ayrı-ayrı qurumların rəsmi internet saytlarında yerləşdirilən materiallardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri müddəaları ondan ibarətdir ki, aparılan nəzəri araşdırmalar və təklif olunan elmi yanaşmalar, intellektual kapital və intellektual mülkiyyət arasında yaranmış münasibətlər sistemini daha aydın dərk edib anlamağa və bu sistemin idarə edilməsində səmərəli tədbirlər işləyib hazırlamağa

şərait yaradır. Dissertasiyanın əksər paraqraflarında konkret problemlərlə bağlı irəli sürülmüş nəzəri müddəalar innovasiya, kreativ idarəetmə və əqli kapitalla bağlı elmi tədqiqat işlərində istifadə edilə bilər. Tədqiqatın təcrübi-praktiki əhəmiyyəti əsasən onunla bağlıdır ki, yeni biliklərin və texnologiyaların hazırlanması, texnologiyaların mübadiləsini və innovasiya proseslərinin sürətləndirilməsini şərtləndirir. Tədqiqat işində verilən təklif və tövsiyələrin həyata keçirilməsi işgüzar təşkilatlarda texnoloji biliklərin istehsala tətbiqini yaxşılaşdıra bilər. Eyni zamanda biznes strukturlarında sənaye mülkiyyətinin qorunması onlara ayrı-ayrı sahələrdə və fəaliyyət növlərində rəqabət üstünlüyü verir. Dissertasiya işinin materiallarından İnnovasiya menecmenti, Əməliyyat menecmenti, İstehsal menecmenti, Kreativ menecment, Strateji menecment, Menecment və s. fənlərin tədrisində istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Müəllif dissertasiya işində təklif olunan nəzəri-metodoloji və tətbiqi xarakterli mülahizələr, irəli sürülən təkliflər və tövsiyələr, işin mahiyyətini əks etdirən təqdimatlarla respublika və beynəlxalq elmi və elmi-praktiki konfranslarda məruzə etmişdir

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya giriş (11123 işarə), 8 paraqrafı birləşdirən 3 fəsil (I fəsil 80147 işarə, II fəsil 83099 işarə, III fəsil 61237 işarə), nəticə (182323 işarə) və istifadə olunan ədəbiyyat siyahısından ibarət olmaqla və 253929 işarə həcmindədir. Dissertasiyada 34 cədvəl, 27 şəkil və 190 adda Azərbaycan, rus, ingilis dillərində olan ədəbiyyat siyahısı öz əksini tapmışdır.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**Giriş**
**I Fəsil. İntellektual kapitalın tədqiqinin nəzəri-metodoloji əsasları**
1.1. İqtisadi kateqoriya kimi intellektual kapitalın təşəkkülü və tətbiqinin elmi-metodoloji əsasları
1.2. İntellektual kapitalın keyfiyyəti - iqtisadi artımın strateji amili kimi
1.3. İntellektual kapitalın maddiləşməsi sisteminin xarakteristikası və ölçülməsi üsulları

**II Fəsil. Azərbaycanda intellektual kapitalın iqtisadi artıma təsirinin təhlili və tənzimləmə mexanizmlərinin araşdırılması**
2.1. Azərbaycanda intellektual kapitalın formalaşmasının mövcud vəziyyəti və əsas tendensiyalar
2.2.Azərbaycanda iqtisadi sahələr üzrə intellektual kapital komponentləri arasındakı əlaqələrin iqtisadi artıma təsirinin qiymətləndirilməsi
2.3. İntellektual kapitalın idarə olunması və tənzimlənməsi strategiyasının müəyyənləşdirilməsi
**III Fəsil. Azərbaycan iqtisadiyyatının innovasiyalı inkişafı kontekstində intellektual kapitalın səmərəliliyinin yüksəldilməsi perspektivləri**
3.1. İntellektual kapitalın iqtısadiyyata tətbiqinin təkmilləşdirilməsi mexanizmləri
3.2. İnnovasiyalı iqtisadiyyatın hərəkətverici qüvvəsi kimi intellektual kapitalın keyfiyyətinin təmin edilməsi istiqamətləri
**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS MÜDDƏALAR:

**1. İntellektual kapitalın yaranmasının tarixi aspektləri, elmi əsasları, iqtisadiyyata tətbiqinin metodologiyası kompleks və sistemli şəkildə araşdırılmış və göstəricilər sistemi formalaşdırlmışdır.**

İntellektual kapitalın keçdiyi yola diqqət edəndə görürük ki, cəmiyyət inkişafın sənayeyə qədərki və sənaye dövründən sonra postsənaye dövrünə keçid aldığı zaman təşkilatın bazardakı rəqabət üstünlükləri artır. Sənaye cəmiyyətində təbii resurslar əmək və kapital ilə əvəz olunurdularsa, postsənaye cəmiyyətində əsasən intellektual kapital və biliklər üstünlük təşkil edir. Bu zaman resursların xarakteri kimi insanların bacarıqları və fəaliyyət növləri də dəyişir və əhalinin məşğul olduğu sahələr yeni müstəviyə və formaya keçid alır.

İntellektual kapitalın müasir konsepsiyası iqtisadi subyektlərin fəaliyyətinin effektivliyinin giriş və çıxış faktorlarını uyğun olaraq əks etdirən resurs (resource-based view) və dəyər (value based management) kimi iki

yanaşmanın kəsişməsində yaranıb. Hər iki yanaşmanın kökləri iqtisadi nəzəriyyəyə gedib çıxır: onların əsasında David Rikardonun və Alfred Marşalın əsərləri durur. Amerikalı iqtisadçı, Nobel mükafatı laureatı Heri Bekker insan davranışının təhlili üçün iqtisadi metodları tətbiq etmiş, bir sıra əsərlərində insan kapitalının nəzəri və empirik analizini aparmış və insan kapitalına qoyulan investisiyaların mahiyyətini açıqlamışdır.

İntellektual kapitalın öyrənilməsinin katalizatoru kimi ilk öncə məşhur ABŞ tədqiqatçısı – T.A.Styuartın apardığı tədqiqatların nəticələri olmuşdur.

İntellektual kapitalın tədqiqatı ilə məşğul olan elmi məktəblərin coğrafi mövqeyi baxımından Kanadalı Nik Bontisi, İsveçli Karl Erik Sveybini və Hollandiyalı Daan Andriessenı qeyd etmək lazımdır. Bugünkü gündə məhz bu müəlliflər kompaniyanın intellektual kapitalının ölçülməsi, qiymətləndirilməsi və mühasibat hesabatında əks olunması sferasını fəal tədqiq edirlər.

Müasir iqtisadi ədəbiyyatda intellektual mülkiyyət, intellektual istehsal, intellektual kapital, intellektuallar sinfi və s. anlayışlardan istifadə edildiyini müşahidə edirik. Lakin iqtisadi dilçilik bu və ya digər anlayışların mahiyyətini aydınlaşdırmaq üçün müvafiq tələblər irəli sürmür. İntellektual proseslər əqli təzahürlərlə eyniləşdirilir, necə ki, intellektual mülkiyyət istənilən ixtira, faydalı model və ya nou-hau ilə birbaşa bağlıdır.

Eyni zamanda, iqtisadiyyatda intellektual təzahürlərin inkişafının institusional trayektoriyası özündə tədqiqatçıların yaradıcı fikrinin hərəkətini tənzimləyən köklü qaydaların möhkəm mexanizmini əks etdirir. Məsələn, əgər intellektual kapitalın tanınmış nəzəriyyəçisi Tomas Styuart onu insan, struktur və müştəri kapitalının birliyi kimi xarakterizə edirsə, digər tədqiqatçıların böyük əksəriyyəti onunla razılaşmamaq üçün heç bir əsas görmürlər.

İntellektual kapital – kapitallaşdırılmış intellektual biliklər sistemidir, onların yaradıcı istifadəsi yeni intellektual nemətlərin istehsalını və uyğun gəlirlərin əldə edilməsini təmin edir. İntellektual biliklər – istehsal amillərinin təkrar istehsalı əsasında sərvətin artımını təmin edən biliklərdir.

Aparılan tədqiqatlar göstərir ki, intellektual kapitalın əsasında onun daşıyıcıları, yəni təşkilatın işçiləri tərəfindən aktuallaşdırılan bilik durur. Tomas Styuart demişdir: “intellektual kapital – faydalı biliklərin

yığımıdır”. Beləliklə, intellektual kapitalın qeyri-maddi xarakteri aydın görünür. Bəzi tədqiqatçılar iqtisadiyyatda intellektual kapitalın xüsusi çəkisini tədqiq etmək məqsədində olurlar. Tomas Styuart belə bir nəticəyə gəlir ki, maddi aktivlər intellektual aktivlər tərəfindən sıxışdırılıb çıxarılırlar. O, 1991-ci ili Amerikada sənaye əsrinin informasiya əsrinə çevrilmə nöqtəsi hesab edir. Həmin ildə informasiya texnikasının əldə olunmasına çəkilən xərclər ilk dəfə olaraq sənaye avadanlıqlarının alınmasına cəkilən xərcləri üstələmişdir.

İntellektual kapital digər göstəricilərlə bərabər milli sərvətin vacib komponentlərindən biridir.

**Cədvəl 1. İntellektual kapitalın mahiyyəti və tərkib hissələri**

| Alimlər | İntellektual kapital nədir? | İntellektual kapitalın tərkib hissələri |
|---|---|---|
| E.Brukinq | Kompaniyanın mövcud ola bilməsi, rəqabət üstünlüyünü gücləndirmək üçün vacib olan qeyri-maddi aktivlərdir. | İnsan resursları, intellektual mülkiyyət, infrastruktur və bazar aktivləri. |
| V.L.İnozemtsev | İnformasiya və biliklər şirkət hüdudlarında intellektual kapital formasını alırlar və istehsaldakı iştirakına və xüsusiyyətlərinə görə xüsusi faktorlardır. | 1.Kompaniyanın işçilərində onların təcrübə, bilik, vərdiş, yenilik etmək, həmçinin firmanın ümumi mədəniyyətinə və fəlsəfəsinə, onun daxili dəyərlərinə olan qabiliyyəti şəklində təcəssüm olunmuş insan kapitalıdır; 2. patentləri, lisenziyaları, ticarət nişanlarını, təşkilati strukturu, verilənlər bazasını, elektron şəbəkələri özündə birləşdirən struktur kapitaldır. |
| B.B.Leontyev | İntellektual mülkiyyəti, onun anadangəlmə və sonradan qazanılmış intellektual bacarıqları və vərdişləri, həmçinin toplanmış biliklər bazası və digər subyektlərlə faydalı əlaqələri daxil olmaqla onun malik olduğu intellektual aktivlərin cəminin dəyəri. | İnsan kapitalı, təşkilati (və ya struktur) kapital və müştəri kapitalı. |
| L.Edvinson | Verilən kompaniya və ya firmanın bazarda kapital davamlı intellektual üstünlükləri sistemidir. | İnsan kapitalı, təşkilati (və ya struktur) kapital və müştəri kapitalı. |

*Mənbə: Cədvəl müəllif tərəfindən tərtib edilib*

**2. İntellektual kapitalın əsas tərkib hissəsi olan intellektual biliklərin generasiyası, strukturu və inkişafı dərindən tədqiq olunmuş və müasir dövrdə iqtisadi subyektlərdə biliklərdən və yeni texnologiyalardan geniş istifadənin müsbət təsirləri aşkarlanmışdır.**

V.S.Yefremov kapitalı və biliyi tamamilə aydın şəkildə əlaqələndirir və qeyd edir ki, *"...intellektual kapital – müəssisənin sərəncamında olan biliklərdir, bu biliklər aydın ... asan ötürülə bilən formada ifadə olunur*". Biliklərin idarə olunması haqda danışarkən B.Z.Milner qeyd edir ki, "söhbət intellektual kapitalın toplanmasından, ... , biliklərin yayılması və ötürülməsi üçün zəmin yaratmaqdan gedir". İntellektual kapitalla bilik arasındakı qarşılıqlı əlaqəni əks edirən çoxlu anoloji mühakimələr sadalamaq olar.

Birincisi, çətin ki, intellektual kapitalın mahiyyətinin izahı zamanı biliyi "təcrübə, informasiya və intellektual mülkiyyət", və yaxud intellektual kapitalın mahiyyəti ilə birbaşa əlaqəsi olmayanları bir sıraya qoymaq qanunauyğun olsun. İntellektual kapitalın mahiyyətini anlamaq üçün yalnız biliklər haqqında söhbət açmaq kifayətdir, çünki "təcrübə" biliyin "nəticəsidir", "intellektual mülkiyyət" isə formalaşmış və kommersiyada istifadə edilməyə hazır bilikdir. "İnformasiya"ya gəldikdə isə əgər uyğun verilənlər aktuallaşma və kapitallaşma mərhələlərini keçməyiblərsə o, bilik olmaya da bilər.

İkincisi, intellektual kapitalı sadəcə "kompaniyanın bütün işçilərinin biliklərinin cəmi" və ya sadəcə bir neçə biliyin cəmi kimi müəyyən etmək düzgün deyil. Biliyi daha çox intellektual potensiala aid etmək olar, nəinki özündə məhz gəlirli, "məhsuldar" dəyəri əks etdirən "kapital" kimi təzahürə. Bu onu bildirir ki, intellektual biliklərin hamısı konkret rifahların yaradılmasında istifadə oluna bilməz. Dəyərlərin yaradılmasında birbaşa tətbiqini tapan biliklər kapital olurlar. Təkrar istehsalda istifadə olunmayan biliklər yaradıcı "güc" əldə etmədən "potensial" vəziyyətində qalırlar. Buna görə də intellektual kapitalı məhz həyati dəyərlərin təkrar istehsalı üçün məqsədyönlü istifadə olunan kapitallaşmış yaradıcı biliklər sistemi kimi müəyyən etmək lazımdır.

Təbiidir ki, hər hansı bir rifahın istifadəsi zamanı insan biliklərinin heç də bütün spektri istifadə olunmur. Onu da qeyd etmək vacibdir ki, ümumi intellektual biliklərin həcmi nə qədər çox olarsa intellektual-innovasiyalı fəaliyyətin alternativ variantları da bir o qədər çox olar. Və

ya əksinə, ümumi biliklər sisteminin məhdudlaşdırılması intellektuala yaradıcı fəaliyyətin müxtəlif sferalarında "konversiya edilməsinə", yəni öz biliklərini müxtəlif sahələrdə tətbiq olunmasına imkan vermir.

Üçüncüsü, biliklər müəyyən struktura malikdir:

1. Genetik əlamətlərinə görə onlar çoxsəviyyəli xarakterə malikdirlər.
2. Biliklər ifadə olunma formalarına görə gizli və aşkar biliklərə ayrılırlar.
3. Adekvatlıq dərəcəsinə görə biliklərin həqiqiliyinin əks olunması onun məzmununun (mahiyyətinin) nisbi həqiqiliyi ilə xarakterizə olunur.
4. İnsan praktikasının məhsulu olaraq, biliklər özündə aktiv istifadənin "gen"ini birləşdirir.

Gördüyümüz kimi, intellektin və intellektual kapitalın əsasının mahiyyəti intellektual biliklərdir. Verilən biliklərin bütün dəyişiklikləri intellektual kapitalın uyğun dəyişdirilmiş formasının əmələ gəlməsinə gətirib çıxarır və onlar yeni məzmunlu xarakteristika və qiymət üçün əsasdırlar. Belə xarakteristikaların vacib elementi və aspekti intellektual kapitalın strukturudur.

Müasir dövrdə intellektual kapitalın maddiləşdirilməsinin patentlər, nou-hau, istehsal sirri və lisenziyalar kimi yeni formaları mövcuddur ki, bunlar istənilən xarakterli (ixtiralar, orijinal texnologiyalar, biliklər, bacarıqlar və s.) məlumatlardır, hansılar ki, kommersiya sirri rejimində qorunur və alqı-satqı obyekti ola bilər və ya sahibkarlıq fəaliyyətinin digər subyektləri üzərində rəqabət üstünlüyünün nailiyyətləri üçün istifadə oluna bilər, cəmiyyət və onun subyektlərinin həyat fəaliyyətinin bütün sferalarında daha çox tətbiq olunan modellər, proqramlar ola bilər.

**3. İntellektual kapital obyektlərinin qiymətləndirilməsi zamanı qarşıya çıxan problemlər təhlil olunmuş, mütərəqqi dünya təcrübəsi öyrənilmiş və Azərbaycanda intellektual kapitalın formalaşmasının mövcud vəziyyəti təhlil olunmuşdur.**

Kapitalın xüsusi forması kimi intellektual potensialın qiymətləndirilməsi zamanı bir ciddi problem vardır, hansını ki, hələ də qənaətbəxş həll etmək mümkün deyil. Məsələ ondadır ki, intellektual potensialda köhnəlmə və qiymətdən düşmə prosesi maddi amillərdə olduğundan fərqlidir. İlk illər intellektual kapitalın fəaliyyəti fiziki kapitalda olduğu kimi deyil, əksinə işçinin fiziki böyüməsi hesabına, həmçinin onun istehsal təcrübəsi toplaması, onun bilik və bacarıqlarının ehtiyatının iqtisadi dəyəri hesabına azalmır, əksinə artır. İntellektual kapitalın dəyərinin artması prosesi müşahidə olunur.

Müasir dünyada intellektual kapitalın qiymətləndirilməsinə elmi araşdırmaların və tədqiqat işlərinin kifayət qədər əhəmiyyətli hissəsi həsr edilməkdədir. Çünki intellektual kapital birbaşa olaraq biznesin səmərəliliyinə təsir edərək, müəssisələrin mənfəət əldə etmək qabiliyyətlərinin yüksəlməsinə təsir edən faktor kimi çıxış edir.

İntellektual kapitalın qiymətləndirilməsi üçün müxtəlif göstəricilər sistemindən istifadə edilməklə fərqli üsullar diqqəti cəlb etməkdədir. İntellektual kapitalın qiymətləndirilməsi üsullarının şərh edilməsi üçün K.E.Sveybinin təsnifatına müraciət edilməsi yerinə düşərdi. K.E.Sveybi bütün üsulları dörd kateqoriyaya bölmüşdür.

1. Xalların hesablanılması üsulu - Scorecard Methods.
2. Bazar kapitallaşdırılması üsulu - Market Capitalization Methods.
3. İntellektual kapitalın birbaşa ölçülməsi üsulu - Direct İntellectual Capital Methods.
4. Aktiv verimliliyi üsulları - Return on Assets Methods.

Yuxarıda deyilən bütün fikirlərin ümumiləşdirilməsi əsasında intellektual kapitalın qiymətləndirilməsində tez-tez istifadə edilən üsulları əks etdirən xüsusi cədvəl tərtib etmək mümkündür (cədvəl 2) .

**Cədvəl 2. İntellektual kapitalın qiymətləndirilməsi üsullarının qısa xarakteristikası**

| Qiymətləndirmə üsulu | Qısa xarakteristika |
|---|---|
| D.Tobin əmsalı | Obyektin bazar qiymətləri dəyərinin onun əvəzedicisinin (mübadiləsi) dəyərinə olan nisbəti |
| K.E.Sveybi üsulu | İntellektual kapital qəlibdə əhəmiyyətinə görə ardıcıllıqla verilmiş sistemə əsasən hesablanılır. İşçi heyətin səlahiyyətləri və əmək məhsuldarlığı göstəricilərinə əsasən qrafik çəkilir |
| Bazar kapitallaş-dırılması üsulu | Bazar və balans dəyəri arasındakı fərqlər müəyyənləşdirilir |
| Texnologiyalar brokeri | Metodika 20 sualdan ibarətdir Müsbət cavabların sayı nə qədər azdırsa, intellektual kapitalın səviyyəsi bir o qədər aşağıdır |
| Norton və Keplenin göstəricilər sistemi | 4 göstəricilər sistemi xüsusi olaraq seçilir: maliyyə; müştəri; daxili proseslər (innovasiya); təhsil |
| İntellektual kapitalın indeksi | Metodika şirkətin dəyər mənzərəsinin yaradılmasına istiqamətlənib. Yanaşma strategiya, qeyri-maliyyə xarakteristikasını, maliyyə və əlavə dəyər göstəricilərini birləşdirir |
| Pulik metodu | Şirkətin üç resurs tipinin səmərəli istifadə edilməsi müəyyənləşdirilir: CEE, HCE və SCE |

*Mənbə: Cədvəl müəllif tərəfindən tərtib edilib*

İntellektual kapital istehsal texnologiyaları və məhsulların yenilənməsinin tempi və xarakterini müəyyənləşdirir, müəssisələrə bazarlarda ən başlıca rəqabət üstünlükləri verir. Yəni bu aspektdən yanaşdıqda qeyd olunmalıdır ki, intellektual kapital müəssisə və şirkətlərin bazarlarda sabit və dayanıqlı intellektual üstünlüklər sisteminin təcəssümü kimi dəyərləndirilə bilər. İntellektual kapitalın formalaşması və inkişafı İnsan İnkişafı İndeksində öz əksini tapır.

**Cədvəl 3. 2023-cü il üzrə ölkələrin İnsan İnkişafı İndeksi[1]**

| İnsan inkişafı indeksinin reytinq sıralaması | Ölkələr | İnsan inkişafı indeksi (qiymət, balla) | Gözlənilən təhsil illəri | Orta təhsil illəri |
|---|---|---|---|---|
| | *Çox yüksək insan inkişafı* | | | |
| 1 | İslandiya | 0.972 | 18.9 | 13.9 |
| 2 | Norveç | 0.970 | 18.8 | 13.1 |
| 3 | İsveçrə | 0.970 | 16.7 | 13.9 |
| 4 | Danimarka | 0.962 | 18.7 | 13.0 |
| 5 | Almaniya | 0.959 | 17.3 | 14.3 |
| 5 | İsveç | 0.959 | 19.0 | 12.7 |
| 7 | Avstraliya | 0.958 | 20.7 | 12.9 |
| 51 | Türkiyə | 0.853 | 19.8 | 9.0 |
| 57 | Gürcüstan | 0.844 | 16.8 | 12.7 |
| 60 | Qazaxıstan | 0.837 | 14.0 | 12.5 |
| 64 | Rusiya Federasiyası | 0.832 | 13.2 | 12.4 |
| 69 | Ermənistan | 0.811 | 14.4 | 11.3 |
| | *Yüksək insan inkişafı* | | | |
| 75 | İran (İslam Respublikası) | 0.799 | 14.0 | 10.8 |
| 78 | Çin | 0.797 | 15.5 | 8 |
| 81 | Azərbaycan | 0.789 | 12.9 | 11.1 |
| 81 | Meksika | 0.789 | 14.5 | 9.3 |
| 86 | Moldova | 0.785 | 14.6 | 11.8 |
| 87 | Ukrayna | 0.779 | 13.3 | 11.1 |
| 95 | Türkmənistan | 0.764 | 13.2 | 11.2 |
| 107 | Özbəkistan | 0.740 | 12.5 | 11.9 |

*Mənbə: Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının 2025-ci il hesabatına əsasən müəllif tərəfindən tərtib edilib*

[1] https://hdr.undp.org/system/files/documents/global-report-document/hdr2025reporten.pdf

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) tərəfindən 1990-cı ildən başlayaraq hazırlanan və nəşr olunan dünya ölkələrinin İnsan İnkişafı İndeksini əks etdirən 2025-ci il İnsan İnkişafı Hesabatına görə Azərbaycanda İnsan İnkişafı İndeksi 2023-cü il üzrə 0.789 balla qiymətləndirilmiş və ölkəmiz 81-ci yerdə qərarlaşmışdır. Bu isə Azərbaycanın 2022-ci illə müqayisədə 8 pillə irəliləyərək 89-cu yerdən 81-ci yerə yüksəldiyini göstərir (cədvəl 3).

İnsan İnkişafı İndeksi insan inkişafının üç əsas ölçüsündə orta nailiyyəti qiymətləndirmək üçün ümumi ölçüdür: uzun və sağlam həyat, biliklərə çıxış və layiqli həyat səviyyəsi. Azərbaycanın 2023-ci il üçün İnsan İnkişafı İndeksi dəyəri 0,789 təşkil edir ki, bu da ölkəni Yüksək insan inkişafı kateqoriyasına daxil edir və onu 193 ölkə və ərazi arasında 81-ci sırada yerləşdirir. Belə ki, 2023-cü il üzrə İnsan İnkişafı İndeksinin 2022-ci illə müqayisədə 3.8 faiz artması nəticəsində ölkəmiz 89-cu pillədən yüksələrək 81-ci pillədə qərarlaşmışdır.

**Cədvəl 4. 2015-2023-cü llər üzrə Azərbaycanın İnsan inkişafı indeksi (İİİ)**

| İllər | İİİ reytinq sıralaması | İİİ (qiymət, balla) |
|---|---|---|
| 2015 | 78 | 0.749 |
| 2016 | 78 | 0.749 |
| 2017 | 80 | 0.752 |
| 2018 | 87 | 0.754 |
| 2019 | 88 | 0.756 |
| 2020 | 100 | 0.730 |
| 2021 | 91 | 0.745 |
| 2022 | 89 | 0,760 |
| 2023 | 81 | 0.789 |

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.*

2024-cü il üzrə Dünya ölkələrinin İntellektual Kapital Reytinqində Azərbaycan 39.01 balla 94-cü yerdə nəticə göstərib (cədvəl 5). Cədvəldən də göründüyü kimi, elm və yeni texnologiyanın yüksək inkişaf etdiyi ölkələr - Cənubi Koreya, Çin və Almaniya ilk üçlükdə yer alıb. Qeyd edək ki, İntellektual Kapital İndeksi təhsil, tədqiqat və inkişaf, yeni biznes kimi klasterlərin genişliyini ölçən indikatorlara əsaslanır.

Dünya İqtisadi Forumunun (WEF) analitik qrupu Harvard Universiteti və Mercer Human beynəlxalq konsaltinq şirkəti ilə birgə İnsan Kapitalı İndeksi (The Human Capital Index) üzrə dünya ölkələrinin

reytinqini dərc edir.

**Cədvəl 5. İntellektual Kapital İndeksi 2024-cü il üzrə** [2]

| Ölkə | reytinq | xal | Ölkə | reytinq | xal |
|---|---|---|---|---|---|
| Cənubi Koreya | 1 | 77.86 | Azərbaycan | 94 | 39.01 |
| Çin | 2 | 75.00 | Bosniya və Herseqovina | 95 | 38.88 |
| Almaniya | 3 | 73.69 | Fici | 96 | 38.68 |
| İsveçrə | 4 | 72.16 | Vanuatu | 99 | 37.69 |
| Yaponiya | 5 | 72.05 | Misir | 100 | 37.63 |
| İngiltərə | 6 | 71.89 | Çad | 186 | 14.77 |
| İsveç | 7 | 71.53 | Papua Yeni Qvineya | 187 | 14.48 |
| ABŞ | 8 | 70.14 | Mauritania | 188 | 14.13 |
| Sinqapur | 9 | 69.68 | Eritrea | 189 | 13.21 |
| Finlandiya | 10 | 67.53 | Cənubi Sudan | 190 | 12.91 |
| Danimarka | 11 | 67.44 | Somali | 191 | 10.74 |

İnsan kapitalı indeksi səhiyyə və təhsilin işçilərin məhsuldarlığına verdiyi töhfələri hesablayır. 2013-2024-cü illər dinamikasını təhlil etdikdə bu indeks üzrə ölkəmizdə 2023-cü ildə artım tempinin olduğunu, lakin 2024-cü ildə isə bir neçə pillə gerilədiyini müşahidə edirik.




**Şəkil 1. İnsan Kapitalı İndeksi (The Human Capital Index) 2013-2024-cü illər dinamikası**[3]

[2] https://solability.com/the-global-sustainable-competitiveness-index/the-index/intellectual-capital

[3] https://datacatalog.worldbank.org/search/dataset/0038030

Aparılan arşadırmalar əsasında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 132 ölkənin məlumatları əsasında hazırlanmış Qlobal innovasiya indeksi üzrə hazırlanan hesabatlarda tutduğu mövqeyə əsasən qeyd edə bilərik ki, ölkəmizdə həyata keçirilən ardıcıl islahat və dövlət proqramlarının icrasına baxmayaraq, ölkəmiz hələ də yetərli səviyyədə nəticə əldə edə bilməmişdir.




**Şəkil 2. Azərbaycan Respublikasının 2018-2024-cü illər üzrə Qlobal innovasiya indeksinin dinamikası**

*Mənbə: https://www.copat.gov.az/- saytının məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilib*

**4. Azərbaycanın intellektual potensialının qiymətləndirilməsi üçün bir-birini tamamlayan üç sahə: təhsil, elm və texnologiya və yeni biznes vasitəsilə qeyri-maddi aktivlərin inkişaf və istifadə səviyyəsini kəmiyyətcə ifadə etməyə imkan verən xüsusi uyğunlaşdırılmış İntellektual Kapitalın İnteqral İndeksi (İKİİ) hesablanmışdır.**

İntellektual kapitalın makro və mikro səviyyədə qiymətləndirilməsi elmi ədəbiyyatda fəal şəkildə öyrənilir. Müasir metodlar insan, struktur və innovativ kapital kimi bir neçə alt komponenti özündə birləşdirən inteqral indekslərin istifadəsini nəzərdə tutur. Tədqiqat əsərlərində bu sahədə aparıcı tədqiqatçıların istifadə etdiyi əsas yanaşmalar təqdim olunur.

Dissertasiyada təqdim olunan müəllif metodologiyası Azərbaycanın intellektual potensialının qiymətləndirilməsi üçün xüsusi uyğunlaşdırılmış İntellektual Kapitalın İnteqral İndeksinin hesablanması üçün struk-

turlaşdırılmış və məntiqi şəkildə qurulmuş alqoritmdir. Klaster yanaşmasına əsaslanaraq, bir-birini tamamlayan üç sahə: təhsil, elm və texnologiya və yeni biznes vasitəsilə qeyri-maddi aktivlərin inkişaf və istifadə səviyyəsini kəmiyyətcə ifadə etməyə imkan verir. Metodologiya mərhələlərlə qurulur.




**Şəkil 3. 2013-2024-cü illər üzrə təhsil, elm və texnologiya və yeni biznes indikatorlarının dinamikası**

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.*

Bu mürəkkəb göstərici əhalinin bilik və təhsil səviyyəsi, elmi-tədqiqat fəaliyyəti və innovasiya potensialı, habelə sahibkarlıq fəaliyyətinin səviyyəsi, xüsusilə ideya və texnologiyaların kommersiyalaşdırılması ilə bağlı komponentlərə diqqət yetirir.

Hesablama metodologiyasına üç əsas komponent daxildir: elmi-tədqiqat və inkişaf səviyyəsini əks etdirən RD_Index, təhsil sisteminin vəziyyətini xarakterizə edən Education_Index və biznes fəaliyyəti və innovativ sahibkarlıq ilə əlaqəli NewBusiness_Index.

İqtisadi şərhdə vurğulanır ki, yekun indeksə ən çox elm və tədqiqat sektoru təsir göstərir, bu, xüsusilə yüksək dəyərlərin olduğu dövrlərdə baş verir. Təhsil komponenti yavaş-yavaş artır və müvafiq indeksin aşağı qiymətləri bu sahədə dərin islahatlara ehtiyac olduğunu göstərir. Sahibkarlıq fəaliyyəti indeksi qeyri-sabitlik nümayiş etdirir ki, bu da innovativ biznesə zəif institusional dəstəyi və texnologiya transferi mexanizmlərinin aşağı səmərəliliyini göstərir.

Ümumi nəticə ondan ibarətdir ki, intellektual kapital indeksinin müsbət dinamikası yalnız hər üç komponentin paralel inkişafı ilə

mümkündür. Eyni zamanda, fərdi fəaliyyət partlayışları sistemli yanaşma olmadan davamlı artımı təmin etmək iqtidarında deyil. İntellektual kapitalın səmərəli inkişafı təhsilə və elmi tədqiqatlara sabit investisiyalar, startaplara və sahibkarlıq təşəbbüslərinə dəstək, habelə elm, təhsil və biznes mühitləri arasında biliklərin ötürülməsi üçün şəraitin yaxşılaşdırılmasını tələb edir.

**5. Yerli müəssisələrdə intellektual kapitalın müasir vəziyyəti həmin müəssisələrdə aparılan sorğular vasitəsilə öyrənilmiş, əldə olunan nəticələr qiymətləndirilmiş və ali təhsil müəssisəsində (UNEC timsalında) intellektual kapitalın dəyəri hesablanmışdır.**

Qeyd edək ki, ölkə üzrə ümumi intellektual inkişaf meyarlarını konkret müəssisələrdə aparılmış sosioloji sorğu və müşahidələrin nəticələri əsasında da qiymətləndirmək olar. Tədqiqat çərçivəsində ölkəmizdə istehsal fəaliyyəti göstərən orta və iri sahibkarlıq subyektində sosioloji müayinə və müşahidələr aparılmışdır. Bu sosioloji müayinələr əsasında ölkəmizdə istehsal sahəsində intellektual kapital və bu kapitaldan istifadə imkanları nəzərdən keçirilərək müvafiq təhlillər aparılmışdır. Müayinələrin əsasında, intellekual kapitalın reallaşmasında əsas faktor kimi insan kapitalının formalaşması və ondan istifadə imkanları nəzərdən keçirilmişdir.




**Şəkil 4. Müəssisələrdə çalışanların təhsil səviyyəsi üzrə xüsusi çəkisi, faizlə**

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.*

Şəkildən göründüyü kimi bu müəssisələrdə insan kapitalının əsas hissəsini, yəni təxminən 66 faizini orta təhsilli insan kapitalı təşkil

etmişdir. Digər pillədən olan heyətin isə müvafiq olaraq 4 faizini subbakalavr təhsilli pillərinin məzunları, 22.5 faizini bakalavr, 7 faizini magistr təhsilli, 1,0 faizini isə doktorantura təhsilli şəxslər təşkil etmişdir.

Bu heyətin təcrübə baxımından əhəmiyyətli hesab edilən bölgüsünü isə aşağıdakı şəkildən daha aydın görmək olar.




**Şəkil 5. Müəssisələrdə çalışanların peşə bacarıqları üzrə xüsusi çəkisi, faizlə**

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.*

Göründüyü kimi müəssisələrdə əsasən 84 faiz təcrübəli işçilərə üstünlük verilmiş, 16 faizə qədər olan hissəni 3 ilə qədər iş təcrübəsi olan əməkdaşlar təşkil etmişdir. Eyni zamanda bu müəssisələrdə fəaliyyət göstərənlərin 10 faizə qədərini isə təcrübə keçən şəxslər təşkil etməkdədir.

Sosioloji müayinə aparılan müəssisələrdə iş rejimi və stimullaşdırıcı tədbirlər də diqqət mərkəzində saxlanılmaqdadır. Belə ki, bu müəssisələrdə əsasən növbəli iş rejimi mövcuddur. İşçilərin iş rejiminə isə əmək məcəlləsinə uyğun saat rejimi tətbiq edilmiş və bu rejim həmin müəssisələrin insan resursları şöbəsi tərəfindən tənzimlənir. Müəsisələrdə işçilərin motivasiyasını təmin etmək məqsədi ilə mükafat fondu müəyyənləşdirilmişdir. Bu fond müəssisələr üzrə ortalama əmək haqqı fondunun 12.8 faizinə bərabərdir.

Tərəfdaşlarla və ya digər təşkilatlarla münasibətlər müəssisələr üçün

xüsusi önəm kəsb etməkdədir. Belə ki, bu müəssisələr üzrə kommunikasiyaya diqqət yetirmiş olsaq görərik ki, müəssisələrdə rəsmi əməkdaşlığa üstünlük verilmiş müqavilələr, memorandumlar imzalanmış, lisenziyalar alınmış, müştərək işlənilən layihələr və s. formada həyat keçirilmişdir.

**6. İqtisadi fəaliyyət sahələrində informasiya-kommunikasiya texnologiyalarının məhsul buraxılışına təsir səviyyəsi qiymətləndirilmişdir.**

Qeyd etdiyimiz kimi, iqtisadi fəaliyyət sahələrində intellektual kapitaldan istifadənin təkmilləşdirilməsinin əsas istiqamətlərdən biri də bu fəaliyyət sahələrinin kompüter texnologiyaları ilə təmin edilməsi, eyni zamanda həmin müəssisələrin fəaliyyətinin daha səmərəli təşkili üçün internetdən istifadənin artırılmasıdır. Bu baxımdan müəssisələrin kompüterlə təminatı və internetə çıxış imkanlarını özündə əks etdirən dinamik göstəricilərin köməkliyi ilə təhlillər aparılmışdır. Tədqiqat əsasında aşkar edilmişdir ki, 2005-ci ildə fəaliyyət göstərən müəssisələrin yalnız 20 faizə qədəri kompüter texnologiyalarından istifadə edirdisə, hazırda göstəricinin sayı 46.6 faiz artaraq 66.6 faizə çatmışdır. Eyni zamanda, həmin kompüterlərin internetə çıxış imkanları da müvafiq olaraq 2005-ci ilə nisbətən 65.7 faiz artaraq 84 faizə çatmışdır. Qeyd edək ki, müəssisələrin internet, kompüter texnologiyalarına çıxış imkanlarının artması son nəticədə fəaliyyət sahələri üzrə ümumi məhsul istehsalının həcminə də öz təsirini göstərməkdədir. Həmin təsir səviyyələrini qiymətləndirmək üçün *Eviews* proqram təminatından istifadə edərək, aşağıdakı təsir səviyyəsi müəyyənləşdirilmişdir.

LOG(X2)=-0.928634758941-0.574990241846*LOG(Y3)-0.531796928999*LOG(Y17)+1.27063126694*LOG(Y16)+0.581995222518*LOG(Y7)-0.389432296216*LOG(Y13)+0.311588730707*LOG(Y11)-0.0928696871302*LOG(Y9)

Dependent Variable: LOG(X2)

Sample: 2005 2023

Included observations: 19

LOG(X2)=C(1)+C(2)*LOG(Y3)+C(3)*LOG(Y17)+C(4)*LOG(Y16)+C(5)
*LOG(Y7)+C(6)*LOG(Y13)+C(7)*LOG(Y11)+C(8)*LOG(Y9)

| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| C(1) | -0.928635 | 0.358762 | -2.588443 | 0.0252 |
| C(2) | -0.574990 | 0.172265 | -3.337818 | 0.0066 |
| C(3) | -0.531797 | 0.119271 | -4.458724 | 0.0010 |
| C(4) | 1.270631 | 0.123509 | 10.28772 | 0.0000 |
| C(5) | 0.581995 | 0.152613 | 3.813549 | 0.0029 |
| C(6) | -0.389432 | 0.225555 | -1.726553 | 0.1122 |
| C(7) | 0.311589 | 0.095270 | 3.270592 | 0.0075 |
| C(8) | -0.092870 | 0.071625 | -1.296615 | 0.2213 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.990182 | Mean dependent var | 4.126893 |
| Adjusted R-squared | 0.983934 | S.D. dependent var | 0.461219 |
| S.E. of regression | 0.058461 | Akaike info criterion | -2.545353 |
| Sum squared resid | 0.037595 | Schwarz criterion | -2.147695 |
| Log likelihood | 32.18085 | Hannan-Quinn criter. | -2.478054 |
| F-statistic | 158.4791 | Durbin-Watson stat | 2.674717 |
| Prob(F-statistic) | 0.000000 | | |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında Eviews proqramında hazırlanıb -* https://www.stat.gov.az

Modeldə $R^2 = 0{,}99$ olması göstərir ki, izahedici X2 dəyişənin asılı Y dəyişənə təsiri statistik olaraq əhəmiyyətlidir və modelin ümumi keyfiyyəti yüksəkdir.

Durbin-Watson əmsalının 2.674 olması da modelin adekvat olduğunu təsdiqləyir. Bu model üçün Fsta =158,4791>0 olması, deməli model reallığa adekvatdır. Modelin iqtisadi interpretasiyasını verək.

Qurulmuş asılılıqdan göründüyü kimi bu göstəricilər arasındakı kəmiyyət asılılıqlarının ekonometrik modelləşdirmənin korrelyasiya–reqressiya metodu ilə qiymətləndirilməsini həyata keçirmək olar.

Tədqiqat nəticəsində aldığımız modelin adekvat olması bizim qiymətləndirməmizi də əhəmiyyətli edir. Beləliklə, modeldən də göründüyü kimi müəssisələrin mövcud kompüterlərinin internetlə

əlaqələndirilməsi ümumi məhsul istehsalına təsirini artırmış olur. Belə ki, internetə çıxış əmsalının bir faiz artırılması baxdığımız modeldə təhsilin keyfiyyətinə ən yüksək müsbət təsiri olmuşdur. Bu təsir səviyəsi təhsil sahəsində yaradılmış əlavə dəyərin 1.27 faiz artmasına səbəb olur. Göründüyü kimi informasiya-kommunikasiya əlaqələrinin genişləndirilməsi məhsul istehsalının artımında xüsusi əhəmiyyətə malikdir. Bununla yanaşı, iqtisadi fəaliyyət sahələrinin internetə çıxış imkanları digər sahələrə də təsir etmişdir.

| | |
|---|---|
|   |   |
| Bu sıra qeyri – stasionardır, çünki artan trend üzrə dəyişir. 2017-ci və 2018-ci illərdə additiv sıçrayışlar mövcuddur. | Korreloqrama görə sıra 1-ci fərqlərə nəzərən stasionardır və ACF 95%-lik etibarlılıq intervalın sərhədlərini aşmır. |




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında Eviews proqramında hazırlanıb* - https://www.stat.gov.az .

Oxşar olaraq internetə çıxış imkanlarının 10 faiz artması bu sahələrdə fəaliyyət göstərən müəssisələrin məhsul buraxılışının həcminin artımına səbəb olmuşdur: Ticarət, nəqliyyat vasitələrinin təmiri - 5,8 faiz, Maliyyə və sığorta fəaliyyəti - 3.1 faiz. Hesablamalardan aydın olur ki, digər sahələrdə isə əksinə məhsul buraxılışının həcminin azalması ilə nəticələnə bilər: Turistlərin yerləşdirilməsi və ictimai iaşə - 0.09 faiz, Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi - 5.3 faiz, Peşə, elmi və texniki fəaliyyət - 3,9 faiz, Emal sənayesi 5,7 faiz.

Bütün bunlar kommunikasiya texnologiyalarından səmərəli istifadənin, daha dəqiq desək intellektual kapitalın inkişaf etdirilməsinin əhəmiyyətini bir daha təsdiq edir.

**7. Müasir tələblər baxımından intellektual kapitalın istehsala tətbiqinin yaxşılaşdırılması, tətbiqi üsullarının və vasitələrinin səmərəliliyinin artırılması yollarını əks etdirən əsaslandırılmış təkliflər və tövsiyələr işlənilib hazırlanmışdır.**

Qeyd etmək lazımdır ki, intellektual kapitalın iqtisadiyyata tətbiqi metodikasının yaxşılaşdırılması üçün hər şeydən öncə intellektual kapitalın optimal idarə edilməsi modeli işlənilib hazırlanmalıdır. İntellektual kapitalın idarə edilməsinin səmərəli modelinin hazırlanması üçün bir sıra prinsipial tələblər müəyyənləşdirilməlidir. Menecmentin, marketinqin, məhsulun keyfiyyətinin, rəqabətqabiliyyətliliyinin idarə olunması, kvalimetriya və bir sıra digər toplanılmış təcrübələr əsasında intellektual kapitalın istehsala tətbiqinin əsas prinsipləri müəyyənləşdirilmişdir: elmi cəhətdən əsaslandırılmış, modelləşdirilmiş, komplektlilik, təkmilləşdirilmiş, dialektik, relyativlik və s.

Müasir iqtisadi ədəbiyyatlarda *intellektual kapitalın istehsala tətbiqi metodikasının təkmilləşdirilməsi* məsələsi xüsusi yer tutur. Burada diqqəti cəlb edən məsələ müəssisələrin innovasiyalı inkişafı məqsədlərinə nail olmaq üçün intellektual kapitalın xüsusi metodologiyasının işlənilb hazırlanmasıdır. Qeyd etmək lazımdır ki, intellektual kapital əhəmiyyətli resurs kimi təkcə cəmiyyətin qeyri-istehsal qüvvəsi kimi çıxış etmir. İntellektual kapital spesifik sosial iqtisadi təsisat kimi ictimai inkişafın prioritet mənbəyi olaraq diqqəti cəlb edir. Deməli intellektual kapital müxtəlif səviyyəli sosial iqtisadi sistemlərin fundamental transformasiyası mənbəyinə çevrilmişdir.

İntellektual kapitalın istehsala tətbiqi metodikasının təkmilləşdirilməsi üçün idarəetmə praktikasında bəzi tədbirlərin həyata keçirilməsi tələb olunur. Bunlar aşağıdakılardır:

- İstehsalatdan kənarda, zahiri mühitin monitorinqi və proqnozu;
- İstehsalat prosesində daxili mühitin monitorinqi və proqnozlaşdırılması, strateji məqsədlərin müəyyənləşdirilməsi;
- İnkişaf ssenarilərinin ekspert qiymətləndirilməsi;
- Riyazi-iqtisadi modellərin tətbiqi;
- Personalın qabiliyyətlərinin və motivasiya səviyyəsinin qiymətləndirilməsi;
- Maliyyə, təşkilati, texniki göstəricilərin təhlili;
- Nəticələrin doğru olmasının təhlili;
- Bazar şəraitinə uyğunluğun qiymətləndirilməsi;
- Strateji məqsədlərin və intellektual kapitalın tətbiqinin idarə edilməsi vəzifələrinin müəyyənləşdirilməsi, əldə edilən proqnoz əhəmiyyətli informasiyaların təhlili;
- İntellektual kapitalın istehsalata tətbiqinin alternativ strategiyalarının formalaşdırılması;
- İntellektual kapitalın istehsalata tətbiqinin optimal strategiyasının məqsədli kriteriyalarının formalaşdırılması;
- Müəyyən edilmiş kriteriyalara alternativ strategiyaların yoxlanılması;
- Optimal strategiyanın seçilməsi.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR:

Müasir dövrdə dünyanın əksər dövlətlərində və xüsusən də iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərində iqtisadi təlatümlərin mütəmadi olaraq yaşandığı bir vaxtda ölkənin intellektual potensialının və intellektual kapitalının formalaşması və inkişafının səmərəli idarə edilməsi mexanizmlərinin müəyyənləşdirilməsi olduqca vacib məsələyə çevrilmişdir. Bütün bunlar isə onunla əlaqədardır ki, indiki dövrdə iqtisadi artımın mühüm mənbələrindən biri kimi qeyri-maddi aktivlər və onun mühüm tərkib hissəsi olan intellektual kapital çıxış edir. Qeyd etmək lazımdır ki, intellektual kapitalın miqyası və keyfiyyəti innovasiyalı inkişafı müəyyənləşdirir. Artıq təkzibedilməz fakt kimi hər kəs tərəfindən

qəbul olunmuşdur ki, yaxın vaxtlarda dünya dövlətləri içərisində lider mövqelərin qazanılması əsasən intellektual kapitalın inkişaf səviyyəsindən asılı olacaqdır. Azərbaycan Respublikasının intellektual kapitalının səviyyəsinin yüksəldilməsi, təkrar istehsalı, yenilənməsi keyfiyyət standartlarının dövrün tələblərinə uyğunlaşdırılması üçün dövlət tərəfindən strateji və taktiki baxımdan yaxın və uzaq perspektivlərə istiqamətlənmiş tədbirlər kompleksi həyata keçirilməlidir.

Göründüyü kimi, intellektual kapitalın formalaşması prosesi şəxsiyyətin formalaşması prosesi ilə eyni zamanda baş verir. İntellektual kapitalın formalaşmasında insan kapitalı aktiv rol oynayır. Prosesə məqsədyönlü təsir göstərilməsi üçün təhsilin və tədris prosesinin daha yaxşı təşkil olunması və eyni zamanda prosesə düzgün nəzarət olunması tələb olunur. Xüsusi mexanizmlər vasitəsi ilə təhsil qarşısında məqsədlər daha dəqiq müəyyənləşdirilə, nəticələr yoxlanıla, səhvlər və yanlışlıqlar düzəldilə bilər.

Dissertasiya işində yuxarıda sadalanan problemlər üzrə kompleks tədqiqat aparılmışdır və bu tədqiqatın əsas nəticələri aşağıdakılardır:

- ✓ İntellektual kapitalın yaranması üçün işçi heyətinin xarakteristikaları nəzərə alınmalıdır, konkret olaraq müəssisənin resurslarının vəziyyəti dəyərləndirilməlidir;
- ✓ Müəyyən tənzimləyici alət və mexanizmlərdən (vergi güzəştləri, investisiya və kredit mexanizmləri) istifadə olunmalıdır;
- ✓ İntellektual kapitalın formalaşması üçün zəruri olan elmi və elmi pedaqoji mühitdən, fundamental və tətbiqi araşdırmalar üçün münbit şərait yaradan mexanizmlərdən intellektual kapitalın formalaşması və inkişafının birbaşa asılılığı nəzərə alınmalıdır;
- ✓ İntellektual kapitalın formalaşmasında təhsilin və tədris prosesinin daha yaxşı təşkil olunması və eyni zamanda prosesə düzgün nəzarət olunması tələb olunur;
- ✓ Elmi və elmi-texniki araşdırmalara və onların tətbiqinə çəkilən xərclərin artırılması. Bu istiqamət innovasiya fəaliyyətinin müxtəlif bazar infrastrukturları ilə tamamlanır;
- ✓ İntellektual qabiliyyətlərin inkişaf səviyyəsi və toplanılan biliklərin həcmi dövrün yeni texnoloji çağırışlarına uyğun səviyyədə olmalıdır;

✓ İntellektual kapitalın istehsalata tətbiqinin idarə olunması metodikasının təkmilləşdirilməsi üçün intellektual kapitalın marketinq və menecmenti inkişaf etdirilməlidir;

✓ Sosial proqramların maliyyələşdirilməsində əsas ağırlıq dövlət büdcəsinin üzərinə düşür, respublika və regional səviyyədə intellektual kapitalın inkişaf etdirilməsi fondunun yaradılması da yaxşı olardı;

✓ İntellektual kapitalın istehsalata tətbiqi metodikasının yaxşılaşdırılması üçün hər şeydən öncə intellektual kapitalın optimal idarə edilməsi modeli işlənilib hazırlanmalıdır.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər dərc olunmuş aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**


1. R.Ş.Hüseynova. İntellektual kapitalın formalaşmasının nəzəri əsasları / AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, III buraxılış, Bakı 2014, səh. 63-70
2. R.Ş.Hüseynova. İntellektual kapitalın müasir vəziyyəti və inkişaf meylləri / "İpək yolu" Azərbaycan Universitetinin elmi jurnalı, №4. Bakı, 2014, səh. 56-64.
3. R.Ş.Hüseynova. İntellektual kapitalın qiymətləndirilməsi xüsusiyyətləri / "Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri" №2 2015, səh. 138-146.
4. Р.Ш.Гусейнова. Интеллектуальный капитал: аспекты развития понятия / «Экономика и предпринимательство», часть 2., Москва, 2015, №12, стр. 659-665.
5. R.Ş.Hüseynova. İntellektual kapitalın istehsalata tətbiqinin təkmilləşdirilməsi / "Kooperasiya" elmi-praktiki jurnal. Azərbaycan Kooperasiya Universiteti. 2017, № 2 (45), səh. 164-169.
6. Р.Ш.Гусейнова. Структура и классификация интеллектуального капитала предприятия / «Современная научная мысль» АНО «Научно-исследовательский институт истории, экономики и права» Москва-2017, № 4, стр. 139-144.
7. Р.Ш.Гусейнова, Г.С.Гасанов. Роль интеллектуального капитала в создании эффективной стратегии деловой организации / "Вестник факультета управления СПбГЭУ". Научный журнал. Выпуск №3. Часть 1, 21.04.2018 г., Санкт-Петербургский

Государственный Экономический Университет, стр. 26-31. http://vfu.unecon.ru/vipusk3.html
8. R.Huseynova. Analysis of the mechanism of intellectual capital formation and management in enterprises / ENECO, Proceedings of Energy Economic Research Center, volume 13, issue 01, 2023, Baku 2023, pages 10-18. https://zenodo.org/records/7750469
9. R.Ş.Hüseynova. İntellektual kapitalın keyfiyyətinin yüksəldilməsində gender problemlərinin həllinin vacibliyi / Lidiya xanım Rəsulovanın xatirəsinə həsr olunmuş *“Təhsilin gender aspektləri”* mövzusunda respublika elmi konfransı. Qərb Universiteti, 18 may 2013-cü il, səh. 163-168.
10. R.Ş.Hüseynova. Müasir dövrdə intellektual kapitalın inkişaf xüsusiyyətlərinin tədqiqi / Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransı. Bakı Dövlət Universiteti-2017, səh. 154-156.
11. R.Ş.Hüseynova. İnsan potensialının reallaşmasının iqtisadi-riyazi modellərlə təsviri / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Səmərəli islahatların uğurlu nəticələri: reallıqlar və perspektivlər” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı Biznes Universiteti – 2017, səh. 377-381.
12. R.Huseynova. Influence of the digital education on the formation of human capital / International Conference Digital Economy: Modern Challenges and Real Opportunities UNEC - Baku / Azerbaijan 13-14 February 2020, pages 274-275.
13. R.Huseynova. Human Capital Management in Enterprises / 55th International Scientific Conference on Economic and Social Development was dedicated to Azerbaijan State University of Economics 90th Anniversary - Baku / Azerbaijan. 25 June 2020, pages 269-276.
14. R.Huseynova, A.Guliyeva, U.Rzayeva, G.Guliyeva. One Approach To Assessing The Intellectual Capital Of A Higher Educational Institution / 55th International Scientific Conference on Economic and Social Development was dedicated to Azerbaijan State University of Economics 90th Anniversary / Baku – Azerbaijan, 25 June 2020, pages 114-121.

15. R.Huseynova, A.Guliyeva, U.Rzayeva. Influence Of Intellectual Capital On Sme's Efficiency In The Transitıon Economy Of Azerbaijan / 70th International Scientific Conference on Economic and Social Development - Baku / Azerbaijan. 25 June, 2021, pages 493-500.
16. R.Huseynova. Analysis of the mechanism of intellectual capital formation and management in enterprises. 10th International Conference on Leadership, Technology, Innovation and Business Management 2022 (ICLTIBM-2022) Baku, Azerbaijan, October 12-14, 2022, pages 464-468.
17. R.Huseynova. Ways to increase the efficiency of methods and means of applying intellectual capital to production / International Black Sea Modern Scientific Research Congress. Rize, Turkiye September 29, 2022 - October 02, 2022, pages 86-87. https://www.izdas.org/blacksea
18. R.Huseynova. Improvıng the application of Intellectual Capital in production / 3. Uluslararası Liberty Disiplinlerarası Çalışmalar Kongresi. - Miami, ABD. 13-15 Ocak 2023, pages 1-7. https://www.libertyacademicbooks.com/libertytr
19. R.Huseynova. Intellectual Capital In The Digital Economy - As A Means Of Increasing The Competitıveness Of The Country / Problems and Prospects of Digital Transformation of National Economy in the Context of Deepening the Integration Processes of Developing Countries and Strengthening Their Competitiveness Proceedings of the International Scientific and Practical Conference, Tashkent 27 October 2023, pages 435-439.
20. R.Huseynova. İmpact of intellectual capital on regional development in the digital economy 2. INTERNATIONAL CONFERENCE ON ECONOMICS "Regional Development - Digital Economy", Baku, Azerbaijan December 21-23, 2023, pages 306-309. 614b1f_0ac1216c9fe345f59b6f9fcded0a5a0e.pdf (iksadkongre.com)

Dissertasiyanın müdafiəsi "24" sentyabr 2025-ci il tarixdə saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "24" iyul 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.06.2025.
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (42231 işarə)
Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*